Ədəbiyyat və incəsənət

17 мај
1985-чи ил
№ 20 [2155]



# Б. С. МАНСУРОВ

Республиканын гочаман тарзәни, Азәрбајҹан ССР халг артисти Бәһрам Сүлејман оғлу Мансуров 1985-чи ил мајын 14-дә 75 јашында вәфат етмишдир.

Бәһрам Мансуров мәшһур мусигичиләр аиләсиндә анадан олмушдур. Бу ҹәһәт онун гејри-ади мусиги габилијјәтинин инкишафы үчүн әлверишли шәраит јаратмышдыр.

О, 1932-чи илдән өмрүнүн ахырынадәк М. Ф. Ахундов адына Азәрбајҹан Дөвләт Академик Опера вә Балет Театрында концертмејстер-солист ишләмишдир. Онун бүтүн јарадычылыг һәјатыны мусигили сәһнәдән, муғам операларындан ајры тәсәввүр етмәк мүмкүн дејилдир. Муғам операларынын јарадылмасы Азәрбајҹан мусигисинин тарихиндә јени сәһифә ачмышдыр.

Парлаг мусиги һафизәси, муғам операларынын инчәликләринә гәдәр бәләд олмасы сајәсиндә маһир тарзән «Лејли вә Мәҹнун», «Әсли вә Кәрәм», «Ашыг Гәриб», «Шаһ Исмајыл» кими бүтүн муғам операларында соло һиссәни мүшајиәт етмишдир.

Шәрг мусигиси мүтәхәссисләри Б. Мансуровун ифасыны јүксәк гијмәтләндирмишләр. ЈУНЕСКО јанында Бејнәлхалг Мүгајисәли Мусигишүнаслыг Институту онун ифасында мусиги әсәрләри јазылмыш грammафон валлары бурахмышдыр.

Бәһрам Мансуров ҹошғун јарадычылыг вә концерт фәалијјәти илә јанашы педагожи ишлә дә мәшғул олурду. 1964-ҹү илдән А. Зејналлы адына Бакы Мусиги Мәктәбиндә дәрс дејирди. О, ҝәнҹ опера мүғәнниләри һазырланмасына хүсуси диггәт јетирирди.

Азәрбајҹан мусиги сәнәтинин инкишафында бөјүк хидмәтләринә ҝөрә Б. С. Мансуров 1956-ҹы илдә республиканын әмәкдар артисти, 1978-ҹи илдә Азәрбајҹан ССР халг артисти адына лајиг ҝөрүлмүш, ики «Шәрәф Нишаны» ордени, ССРИ медаллары илә, Азәрбајҹан ССР Али Совети Рәјасәт Һеј'әтинин фәхри фәрманлары илә тәлтиф олунмушдур.

Бөјүк мусигичи, ҝөзәл инсан, гајғыкеш мүәллим Бәһрам Сүлејман оғлу Мансуровун әзиз хатирәси ону танымајанларын гәлбиндә һәмишә јашајаҹагдыр.

**Јолдашларындан бир груп.**